*(Əvvəli 11-ci səhifədə)*

Sürü arxacdan çıxanda Çingiz də çomağını götürüb çobanlara qoşulur, bəzən axşamacan qoyun otarırdı. Sanki zövq alırdı. Sonra da Namlı çayında - Çobanboğulanda o ki var çimirdilər. Nə qədər qorxulu olsa da, valideynlərinin gözündən oğurlanıb tay-tuşları ilə qaçırdı çaya sarı». Kitabda onlarca belə yaddaqalan, duyğulu, Laçın və laçınlılar haqqında dolğun təsəvvür yaradan parçalar var.

Yeri gəlmişkən, müəllifin zəngin informasiya, məlumat bolluğuna sahib olmasını da qeyd etməliyik. Sanki onun nəzərindən adı olan bir qaya da yayınmır. Ünvanlı bir cığır da yaddan çıxmır. Kəndlər, obalar xəritə dəqiqliyi ilə sıralanır. Hətta Laçını görməyən hər kəs bir gün o yerlərə qayıdanda belə həmin ad-ünvan bələdliyi ilə o yerləri inamla keçə bilər, tanıya bilər.

Ötərxan Eltacın yazılarında güclü sevgi enerjisi var. O, hər daşı, qayanı, yolu, çayı, bulağı elə sevgi ilə təsvir edir ki, oxucunun yaddaşına hopur. Çünki onun özünün daxili bir yanğısı var. O yerlərə qayıtmaq, o yerlərdə təzədən bitmək istəyi var. Və bu istək qarşısıalınmazdır. Daha bir parçanı oxumaq müəllif məlumatının zənginliyi ilə tanış olmaq və müəllifə kifayət qədər inanmaq üçün bəs edərdi: «Görüş baş tutduqdan sonra silahlanan iki yüz nəfərlik dəstə Kəlbəcər istiqamətindən Laçına doğru hərəkətə keçdi. Ta Ağduzdağdan Qorçunun başı üstündəki Yol evinə qədər irəlilədi. İki günlük fasilədən (əslində, arxadan gələnləri gözləyirdilər) sonra kəşfiyyat hərəkətə keçdi. Qorçu, Oğuldərə, Lolobağırlı, Qarabəyli kəndləri qarət edilmiş, yandırılmış, viran

# ÖLÜMSÜZLƏR ÜÇÜN SÖZLƏNƏN DUYĞULAR

***Şair-publisist Ötərxan Eltacın "Laçın yolu: Yurdsuz çiçəklər" publisistik əsəri haqqında düşüncələr***



qoyulmuşdu. Amma yenə də yerli sakinlər kəndi tərk etməmişdilər. Ermənilər kəndə soxularkən sakinlər meşəyə çəkilir, qarət başa çatandan sonra isə evə dönürmüşlər. Bu hal Milli Ordu və Laçın polis taborunun ikinci dəfə Laçına dönüşünə qədər davam edib. Qərargah Qorçuda yerləşdirildikdən sonra Korcabulaq, Ərikli, Kürdhacı istiqamətində də kəşfiyyat əməliyyatı keçirildi. Digər tərəfdən yola düşən kəşfiyyatçılar isə Daşlı, Şəlvə, Hacıxanlı, Budaqdərə, Dambulaq, Narışlar, Vəlibəyli kəndlərini nəzarətə götürdü. Yenə də evlər yandırılmış, talan edilmişdi». Bu təsvirlərdə göründüyü kimi ayrı-ayrı kəndlərin adları sadəcə sıralanmır. Həm də işğalın mahiyyəti açılır. Erməni faşizminin iç üzü oxucuya çatdırılır. Əslində, belə kitabların tərcümə edilməsi Dünya Azərbaycanlıları arasında yayılması çox vacibdir.

Ötərxan Eltac görünür, bu kitabı birdən-birə yazmaq qərarına gəlməyib. Zəngin və əhatəli kitab təkcə Yuxarı Qarabağı Ermənistan - Azərbaycan sərhədlərindən tutmuş Aşağı Qarabağın sınırlarına qədər olan əraziləri əhatə etmir. Sinəsində Vətən ürəyi döyünən hər kəsin sakin olduğu yerin ürək çırpıntılarını bu kitabda duymaq olar. Bu mənada kitab. həm də müəllif ürəyinin səsidir, döyüntülərin sözlərə çevrilməsidir.

Ötərxan Eltac mənəvi ehtiyatı olan qələm sahibidir. Elə bu kitabın özü də onun böyük həyat romanının çox canlı layihəsidir. Yaxın gələcəkdə reallaşa biləcək cizgiləridir.

Ötərxan Eltac qəhrəmanlarının birinin dilindən deyir: «Vətənin dar günündə arzularımın arxasınca qaça bilmərəm». Bu, həm də elə onun özünün kredosudur.

Bu kitabda mən yurdunu sevən bir müəllifin mənən yaşarılığını, ayrı-ayrı məqamlarda qəhrəmanlarının cismani ölümü ilə birgə əbədiyyətə qovuşma duyğularını da gördüm.

Yaşamaq nədir - sualına çox fərqli cavablar verilə bilər. Həqiqi yaşamağın bir üzü də elə Ötərxan Eltac kimi yaşamaqdır. Ziyalı hünəri, vətəndaş ləyaqəti adı ilə yaşamağın daha başqa hanı adı, ünvanı var.

***Əli Rza XƏLƏFLİ,***
***25.04.2017***

**Kredo.- 2018.- 27 yanvar.- S. 12.**